# Darıxma Laçın, az qalıb



**Uzun illərdən bəri bu tarixi məqamı necə həsrətlə gözləmişik, ilahi! Sınmışıq, əzilmişik, için-için sızlamışıq, odlara bürünüb qovrulmuşuq. Amma bu ötən 30 ildə ürəyimizdəki ümid qığılcımları bir an da sönməyib.**

Prezidentimiz, Ali Baş Komandanımız, bütün dünyanı heyrətə qoyan ər oğlu ər İlham Əliyevin müdrik siyasəti, qəhrəman sərkərdə məharəti ilə on milyonluq xalq bir anın içində yumruğa döndü. İçimizdəki ümid qığılcımları vulkana çevrilib alov püskürdü. Doğma Qarabağımızı 30 ildən bəri işğalda saxlayan mənfur düşmənlərimizə nifrətlə düyünlənən bu yumruq indi bütün cəbhəboyu onların başında ildırım kimi çaxır.

Düşmən arxasına baxmadan qaçır. Həm də havadarlarının səxavətlə hədiyyə etdiyi ağır döyüş texnikasını, silah-sursatını cəbhə xəttində qoyub qaçır. Azərbaycan əsgərinin qəhrəmanlığından doğan bu mənzərəni televiziya ekranlarından qürurla seyr edir, uzun illərin məhrumiyyətlərini, ağrı-acısını unuduruq.

Şanlı Ordumuzun zəfər yürüşü isə uğurla davam edir. Müqəddəs bayrağımız bir-birinin ardınca düşmən işğalından azad edilən kənd və şəhərlərimizdə dalğalanır. İndi azadlıq sırası doğma Laçında, Şuşada, Xankəndidə, Kəlbəcərdə, Ağdamdadır...

Mərd, cəsur, vətən torpaqlarının bütövlüyünü öz varlığından üstün tutan Laçın camaatı uşaqdan-böyüyə, qadından-kişiyə hamısı bu gün QƏLƏBƏ təşnəsidir. Müzəffər Ordumuz indi doğma Laçınımızın beş addımlığındadır. 30 ildən bəri işğal altında qalan, gözləri yol çəkən Laçının azad edilməsi an məsələsidir. Gün kimi aydındır ki, Laçına tezliklə yenidən və həmişəlik qovuşacağıq. O yerlərin uca dağları, gen dərələri, gur çayları, durna gözlü bulaqları, sıx meşələri, can dərmanı olan saf suları, təmiz havası üçün çox darıxmışıq.

Artıq QƏLƏBƏnin addım səsləri eşidilir. Bir az da döz, Laçınım, gəlirik! Torpağına qarışmağa, çəmənində göyərməyə, yamacında çiçək olub açmağa, səni yenidən qurub-yaratmağa, gerçək bir cənnətə döndərməyə gəlirik! Bizi ürəyimizin bu ali istəyinə qovuşduran şanlı Ordumuza, qətiyyətli Ali Baş Komandanımız İlham Əliyevə eşq olsun!

Son olaraq bir məsələni də qeyd etmək istəyirik. Etiraf edək ki, unutqan xalqıq. Amma bundan sonra səhv etməyə, başımıza gətirilənləri, erməni məkrini, qanlı xəyanətləri unutmağa haqqımız olmamalıdır. Övladlarımıza, gələcək nəslə ciddi problemlər qoymamağa çalışmalıyıq. Erməni faşistlərinin cinayətlərinin qanlı nəticələrini, Tovuzda, Gəncədə, Ağdamda, Tərtərdə, Füzulidə, Bərdədə, digər bölgələrdə raket və mərmilərlə dağıdılan evlərin, məktəblərin, uşaq bağçalarının bəzilərini bərpa etmədən görk və sübut kimi saxlamaq lazımdır. Qoy, onlar millətimizin qan yaddaşına çevrilsin. Çevrilsin ki, gələcək nəsillər baxanda ermənilərin faşist xislətini görsünlər, onların bəşəriyyətin üz qarası olduğunu görüb anlasınlar, dostla dost, düşmənlə düşmən olsunlar.

***Ramiz CƏBRAYILOV,***
***Laçın rayon sakini***

Azərbaycan.- 2020.-31oktyabr.- S.7.